Xalq qəzeti 2020.- 10 yanvar.- S.1;4.

# “Bakı şəhəri bizim milli sərvətimizdir”



*Mən şəhərdə gedən abadlıq-quruculuq proseslərinə şəxsən nəzarət edirəm, bir çox layihələrin təşəbbüskarı olmuşam. Bu gün Bakı dünyanın ən gözəl şəhəri kimi inkişaf edir. Bakıya gələn qonaqlar, o cümlədən mənim həmkarlarım həmişə paytaxtda gedən quruculuq-abadlıq işləri haqqında öz təəssüratlarını bölüşürlər və qeyd edirlər ki, Bakı doğrudan da dünyanın ən gözəl şəhərlərindən biridir.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

***Azərbaycanda kəndlər, qəsəbələr, şəhərlər getdikcə simasını dəyişir, gözəlləşir. Belə yeniləşmə bir vaxtlar neft tullantıları içərisində boğulan Bakıətrafı yaşayış sahələrində də özünü qabarıq büruzə verir. Paytaxtkənarı rayonlarda sosial obyektlər inşa olunur, yollar çəkilir, yeni iş yerləri yaradılır. Bütün bunlar isə, şübhəsiz ki, Azərbaycan Prezidenti İlham Əliyevin yeritdiyi sosial siyasətin, insanlara göstərdiyi diqqət və qayğının, gündəlik nəzarətin bariz ifadəsidir.***

Azərbaycan Prezidenti İlham Əliyev Anar Quliyevi Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar qəbul edərkən bu barədə ətraflı danışıb, eyni zamanda, bildirib ki, ölkə rəhbərinin tapşırığı ilə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin funksiyaları genişləndirilib. Hazırda komitə şəhərsalma və memarlıq prinsiplərini müasir əsaslarla təşkil etmək üçün xüsusi rola və əhəmiyyətə malikdir.

Dövlət başçısı nitqində paytaxtımızın arxitektura tarixinə də nəzər salıb. Bakının çar Rusiyası və sovet dövründə sənaye şəhəri kimi formalaşdığını və bunun şəhərin ekoloji vəziyyətinə mənfi təsir göstərdiyini xatırladaraq deyib: “Bir neçə il bundan əvvəl mənim göstərişimlə Bakıda geniş yenidənqurma və abadlıq işlərinə start verildi. Vəzifə ondan ibarət idi ki, biz Bakını parklar və bağlar şəhərinə çevirək və buna nail oluruq. Bu gün həm Bakı sakinləri bunu görür, həm də xarici qonaqlar bunu qeyd edirlər. Bakının ekologiyasını böyük dərəcədə çirkləndirən yerlər və müəssisələr artıq ləğv olunur. Onların yerində müasir, şəhərsalma qaydalarına uyğun yeni ictimai zonalar yaradılır. Biz, ilk növbədə, Bibiheybət buxtasının yaşıllaşdırılması, neft gölməçələrinin qurudulması və təmizlənməsi məsələsinə diqqət yetirdik. Vaxtilə ekoloji fəlakət mənzərəsini əks etdirən Bibiheybət buxtası indi yaşıllıq, park zonasıdır. Orada idman şəhərciyi, o cümlədən Su İdmanı Sarayı, digər idman və istirahət infrastrukturu yaradılıbdır”.

Əlbəttə, bütün bunların nəticəsidir ki, qədimliyi və müasirliyi ilə nəzərə çarpan Bakı bu gün dünyada modern şəhər kimi tanınır. Paytaxtımız xarici turistlər üçün maraqlı və cəlbediciliyi ilə diqqət çəkir. Bakının tarixi-memarlıq abidələri ilə zəngin olan hissəsi ilə yanaşı, həm də müasir məkanları da bura gələn əcnəbi qonaqların marağına səbəb olur. Şəhərdə müxtəlif bədii sərgilərin, müasir görməli yerlərin mövcudluğu paytaxtımızın görünüşünə xüsusi rəng qatır.

Son illərdə Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Bakıda həyata keçirilən abadlıq-quruculuq tədbirlərinin həcmi də artıb. Bu işlər paytaxt sakinlərinin və ölkəmizə gələn turistlərin istirahəti üçün ən müasir parkların və yeni-yeni yaşıllıq zolaqlarının salınması, şəhərin qədim tarixi memarlıq nümunələrinin bərpası və yeni, müasir binaların tikilib istifadəyə verilməsi ilə müşayiət olunur. Bütün bunlar yuxarıda qeyd etdiyimiz kimi, Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirib. Yeni park, istirahət məkanı və guşələrinin yaradılması, əhaliyə xidmət göstərən müasir infrastrukturun qurulması bu məsələdə mühüm rola malikdir.

Prezident İlham Əliyev sözügedən qəbul zamanı bu barədə ətraflı danışıb. Paytaxtın inkişafının daim diqqət mərkəzində saxlanıldığını bildirən dövlət başçısı şəhərdə gedən abadlıq-quruculuq proseslərinə şəxsən nəzarət etdiyini, bir çox layihələrin təşəbbüskarı olduğunu vurğulayıb. Xatırladıb ki, hazırda Bakı dünyanın ən gözəl şəhəri kimi inkişaf edir. Azərbaycana gələn qonaqlar, o cümlədən xarici dövlət başçıları hər zaman paytaxtda gedən quruculuq-abadlıq işləri haqqında öz təəssüratlarını bölüşür, Bakının, doğrudan da, dünyanın ən gözəl şəhərlərindən birinə çevrildiyini bildirirlər.

Prezident İlham Əliyev nitqində şəhərin ekoloji vəziyyətinin getdikcə yaxşılaşdığını, bir sıra önəmli layihələrin icra edildiyini, əvvəlki illərdə şəhərin havasını çirkləndirən mənbələrin aradan götürüldüyünü diqqətə çatdırıb: “Balaxanı zibilxanası digər tərəfdən şəhərimizin havasını çirkləndirirdi. Onilliklər ərzində biz bu acı reallıqla üz-üzə qalmışdıq. Orada yandırılan zibilin tüstüsü bütün şəhərimizin səmasını zəhər kimi bürüyürdü. Biz oranı da təmizlədik, müasir zibilyandırma zavodu, poliqon tikilibdir. Çoxdandır ki, orada məişət tullantılarının çeşidlənməsi prosesi təşkil edilib və artıq bu zona ekoloji təmiz zonaya çevrilib. O əraziyə bitişik olan Böyükşor gölünün təmizlənməsi layihəsi də çox böyük əhəmiyyət daşıyır. Ora da vaxtilə ekoloji fəlakət zonası idi. Çünki sovet vaxtında oraya həm kanalizasiya, həm də lay suları axıdılırdı, eyni zamanda, oradan açıq səma altında neft anbarı kimi istifadə olunurdu. Böyükşor gölünün birinci hissəsinin təmizlənməsi hesab edirəm ki, şəhər üçün tarixi hadisədir. Hazırda orada bir kilometr uzunluğunda bulvar salınıb və gölə quşlar da qonurlar. Bu da onu göstərir ki, təmizlik tam təmin edilibdir. Mən digər sahələri də sadalaya bilərəm, onlardan biri də Qara şəhərdir. İndi bəzilərinin yadından çıxır ki, biz maşınla o yerdən keçəndə pəncərələri bağlayırdıq. Çünki tüstüdən, iydən dayanmaq mümkün deyildi. Biz Qara şəhəri Ağ şəhərə çevirdik. Hesab edirəm ki, bu da dünya miqyasında ən böyük və ən müasir standartlara cavab verən şəhərsalma layihələrindən biridir. Artıq orada çoxmənzilli evlər tikilir, ictimai zonalar yaradılır. Qara şəhəri ləğv edib onun yerində ekoloji təmiz Ağ şəhər yaratmaq bizim növbəti tarixi xidmətimizdir”.

(ardı 4-cü səhifədə)

# “Bakı şəhəri bizim milli sərvətimizdir”

*(əvvəli 1-ci səhifədə)*



Dövlətimizin başçısı nitqində “Sovetski” adlandırılan ərazidə aparılan abadlıq-quruculuq işlərindən, orada yaradılan Mərkəzi Parkın dünya miqyasında ən gözəl istirahət mərkəzlərindən birinə çevrilməsindən, vaxtilə uzunluğu cəmi 3 kilometr olan Bakı bulvarının hazırda 15 kilometrə çatdırılmasından da bəhs edib, eyni zamanda, paytaxtın tikinti, abadlıq-quruculuq işlərində Şəhərsalma və Arxitektura Komitəsinin fəal mövqe tutmasının zəruriliyini diqqətə çatdırıb: “Vətəndaşların rahatlığı, ekoloji cəhətdən təmiz layihələrin icrası və şəhərsalma qaydalarına tam riayət edilməsi əsas prinsiplər olmalıdır”.

Prezident İlham Əliyev nitqində əvvəlki dövrlərdə şəhərsalma qaydalarının bəzi hallarda kobudcasına pozulması hallarını təəssüflə xatırladıb. Ölkə rəhbəri Bakının müxtəlif yerlərində tarixi keçmişimizə zidd olan, heç bir memarlıq standartına uyğun olmayan, ümumi mənzərəyə ziyan vuran yöndəmsiz və eybəcər binalar tikildiyini xüsusi vurğulayıb. Qeyd edib ki, son vaxtlar ölkə rəhbərinin göstərişi, xüsusilə Şəhərsalma və Arxitektura Komitəsinin rəhbərliyinin dəyişilməsi nəticəsində artıq müvafiq qaydalara riayət edilməyə başlanılıb: “Bunu iş adamları da nəzərə almalıdırlar. Bakı şəhəri bizim tarixi sərvətimizdir. Biz imkan verə bilmərik ki, hansısa bir təmənnaya, hansısa bir hərisliyə görə şəhərimizin keçmişini məhv edək, yaxud da şəhərimizin gələcəyini şübhə altına qoyaq. Qətiyyən bu, olmayacaqdır. Bütün biznes dairələri, inşaatla məşğul olan bütün şirkətlər bilsinlər ki, bundan sonra harada gəldi bina, ev tikmək praktikasına artıq son qoyulubdur. Bütün evlər, binalar şəhərsalma qaydalarına, Bakının memarlıq obrazına uyğun şəkildə tikilməlidir. Ona görə bu məsələyə çox böyük diqqət yetirmək lazımdır”.

Azərbaycan Prezidenti nitqində diqqəti Bakı şəhərinin bundan sonra ancaq Baş Plan əsasında inkişaf etməsi zəruriliyinə yönəldib. Baş Plana uyğun olmayan heç bir bina-

qarşıya mühüm vəzifə kimi qoyub. Bunun üçün Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə bu məsələni xüsusilə diqqət mərkəzində saxlamasının, vəziyyətə ciddi nəzarət etmək məqsədilə paytaxtda və böyük şəhərlərdə, ümumiyyətlə, bütün ölkə üzrə monitorinq qruplarının fəaliyyət göstərmələrinin vacibliyini xatırladıb.

Dövlət başçısı nitqində daha sonra getdikcə artan əhalinin sosial infrastruktura tələbatının daha dolğun ödənilməsi məqsədilə Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan və digər şəhərlərin Baş Planının tərtib edilməsindən, şəhərsalma və memarlıq prinsiplərinin qorunmasından, ekoloji vəziyyətin yaxşılaşdırılmasından, Bakının mərkəzi rayonu-

məsələlərdən ətraflı danışıb.

Sonda qeyd edə bilərik ki, Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Bakıda, eləcə də digər şəhər və rayonlarımızda həyata keçirilən tikinti, abadlıq-quruculuq tədbirlərinin həcmi gündən-günə artır. Bu işlər respublika sakinlərinin və ölkəmizə gələn turistlərin istirahəti üçün ən müasir parkların və yeni-yeni yaşıllıq zolaqlarının salınması, şəhərin qədim tarixi memarlıq nümunələrinin bərpası və yeni, müasir binaların tikilib istifadəyə verilməsi ilə müşayiət olunur. Bütün bunlar yuxarıda qeyd edildiyi kimi, Azərbaycanı dünyanın ən gözəl ölkələrindən birinə çevirir.

*“Xalq qəzeti”*